

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 126 (21.536)

12 iyul 2016-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



İyulun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Bu ilin altı ayında ölkəmizin xarici siyasətinin fəal olduğunu deyən Prezident İlham Əliyev çıxışında iqtisadi inkişaf proseslərindən də danışıb, cari ilin altı ayında ümumi daxili məhsulun azalmasına baxmayaraq, sənaye və kənd təsərrüfatında, o cümlədən qeyri-neft sektorunda artımın müşahidə olunduğunu deyib. Bildirib ki, ötən 6 ayda ölkə iqtisadiyyatına 6,3 milyard dollar sərmayə qoyulub və xarici investorlar üçün Azərbaycan cəlbedici ölkə olaraq qalır. İlin birinci yarısında 78 min daimi iş yeri açılıb, sosial tədbirlərin həyata keçirilməsi istiqamətində mühüm işlər görülüb.

Sonra müdafiə sənayesi naziri Yavər Camalov, kənd təsərrüfatı naziri Heydər Əsədov, "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə 2016-cı ilin 6 ayında görülən işlər və qarşıda duran vəzifələrlə bağlı məruzə ediblər.

Prezident İlham Əliyev yekun nitqində prioritet istiqamətlər üzrə qarşıda duran vəzifələrin yerinə yetirilməsinin vacibliyini vurğulayıb.

## AMEA Naxçıvan Bölməsində informasiya-kommunikasiya texnologiyaları otağı yaradılıb



Bu münasibətlə keçirilən tədbirdə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək bölmədə yaradılan informasiya-kommunikasiya texnologiyaları otağının əhəmiyyətindən danışıb. Qeyd edib ki, müasir dövrdə İKT-nin inkişaf etdirilməsi hər bir ölkənin intellektual və elmi potensialının vacib göstəricilərindən biridir və bu prosesin zəruriliyi indiki qloballaşma dövründə daha çox hiss olunur. Bu texnologiyaların sürətli inkişafı və yayılması bəşəriyyətin inkişafı üçün geniş imkanlar yaradır.

Bildirilib ki, AMEA Naxçıvan Bölməsində bu yaxınlarda ilk dəfə olaraq onlayn şəkildə həyata keçirilən imtahanlar informasiya-kommunikasiya texnologiyaları otağında baş tutub. Bundan sonra doktorantlar və dissertantlar artıq informatikadan minimum imtahanları üçün Bakıya getməyəcəklər. Naxçıvandan birbaşa olaraq onlayn şəkildə imtahanlarda iştirak edə biləcəklər.

AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov çıxış edərək deyib ki, otaqda yaradılan şərait gənc alimləri uğurlu tədqiqatlar aparmağa ruhlandıracaq və onlar burada yaradılan canlı bağlantılar vasitəsilə gələcəkdə onlayn konfranslarda, iclaslarda da iştirak edə biləcəklər.

Sonda akademik İsmayıl Hacıyev yaradılan şərait üçün Ali Məclisin Sədri cənab Vasif Talıbova muxtar respublikanın elmi ictimaiyyəti adından minnətdarlığını ifadə edib.

## Gənclər hərbi xidmətə yola salınıblar

***"Azərbaycan Respublikası vətəndaşlarının 2016-cı il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2 iyun 2016-cı il tarixli Sərəncamına əsasən, Ordubad rayonunda gənclərin növbəti hərbi xidmətə yola salınmasına həsr olunmuş mərasim keçirilib.***

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ordubad Rayon Şöbəsində keçirilən mərasimdə rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, ictimaiyyətin nümayəndələri, habelə hərbi qulluqçular, müharibə veteranları, çağırışçıların valideynləri iştirak ediblər.

Mərasimi giriş sözü ilə şöbənin bölmə rəisi, baş leytenant Tahir Hüseynov açıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının Ordubad rayon təşkilatının sədri Fərrux Nağızadə, Ordubad Rayon İcra Hakimiyyətinin əməkdaşı Etibar İsmayılov, rayon Təhsil Şöbəsinin əməkdaşı Əyyar Səfərov çıxış edərək gənclərə hərbi xidmətə yola düşmələri münasibətilə təbriklərini çatdırıblar. Çıxış edənlər ölkəmizdə ordu quruculuğunda qazanılan uğurlardan, Azərbaycan əsgərlərinin mərdlik və şücaətindən söhbət açıb, gənclərə torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmağı, hərb işinin sirlərinə mükəmməl yiyələnməyi tövsiyə ediblər.

Valideynlər adından danışan Əsəd Əliyev övladının hərbi xidmətə yollanmasından qürur və fəxarət hissi keçirdiyini deyib, gənclərə şərəfli xidmət arzulayıb.

Gənc çağırışçılar adından çıxış edən Turan Cabbarlı Vətənə xidmət etməyə yola düşdüklərindən qürur duyduqlarını bildirib.

Tədbirə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ordubad Rayon Şöbəsinin rəisi, mayor Vüqar Rəhimli yekun vuraraq hərbi xidmətə yola salınan gəncləri təbrik edib. Qeyd olunub ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən ordu quruculuğu sayəsində ölkəmizdə güclü, müasir hərbi texnika və silahlarla təchiz edilmiş Silahlı Qüvvələr yaradılıb. Azərbaycan Ordusu bu gün Cənubi Qafqazda ən güclü ordudur.

Sonda gənclər təntənəli marşın sədaları altında hərbi xidmətə yola salınıblar.

Məlumat üçün bildirək ki, həmin gün Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Culfa Rayon Şöbəsində də gənclərin ordu sıralarına yolasalma mərasimi keçirilib.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Şərur rayonunda bələdiyyə nümayəndələrinin iştirakı ilə seminar-müşavirə keçirib.***

## Şərur rayonunda bələdiyyələrlə bağlı seminar-müşavirə keçirilib

Tədbiri giriş sözü ilə Şərur Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov açıb.

Seminar-müşavirədə Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev məruzə edərək bildirib ki, muxtar respublikamızda, eləcə də Şərur rayonunda bələdiyyələrin məhsuldar fəaliyyəti üçün hər cür şərait yaradılıb. Hazırda rayon bələdiyyələri dövlət qurumları üçün ayrılan binalarda rahat iş otaqları, müasir texniki avadanlıqlar ilə təmin olunublar. Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi tərəfindən mütəmadi olaraq bələdiyyələrə hərtərəfli köməklik göstərilir, onların müxtəlif istiqamətlərdə fəaliyyətinin düzgün qurulması məqsədilə maarifləndirmə işləri aparılır, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin ən yüksək səviyyədə səmərə verməsi üçün həyata keçirilən tədbirlər davam etdirilir. Müsbət hal kimi onu qeyd etmək olar ki, son vaxtlar yaxşı nəticələr əldə edilib, inzibati nəzarət qaydasında nazirliyə daxil olan bələdiyyə aktlarının sayında artım müşahidə olunub, kargüzarlıq işlərinin səviyyəsi yüksəlib, baş verən hüquq pozuntularının sayında əhəmiyyətli dərəcədə azalma müşahidə edilib, az da olsa baş verən halların aradan qaldırılması xüsusi diqqət mərkəzində saxlanılıb. Nazirliyin əməkdaşları mütəmadi muxtar respublika ərazisində fəaliyyət göstərən bələdiyyələrdə maarifləndirici tədbirlər təşkil edir, bələdiyyə fəaliyyətini tənzimləyən normativ-hüquqi aktların müddəaları izah olunur. Lakin keçirilən maarifləndirici tədbirlərə, göstərilən metodik köməyə baxmayaraq, bəzi bələdiyyələrin fəaliyyətində hələ də nöqsanlar və çatışmazlıqlar qalmaqdadır. Bunların aradan qaldırılması üçün bələdiyyələrin vəzifəli şəxsləri işdə daha məsuliyyətli olmalı, kargüzarlıq işlərini düzgün qurmalı, bələdiyyə torpaqlarından səmərəli istifadə edilməsinə diqqəti artırmalı, bələdiyyə torpaqlarının zəbt olunmasının qarşısını almalı, eyni zamanda əhalini maarifləndirməlidirlər.

Sonda buraxılan nöqsanların aradan qaldırılması ilə bağlı müzakirələr aparılıb, bələdiyyə nümayəndələrinin suallarına aydınlıq gətirilib, seminar-müşavirə iştirakçılarına "Yerli özünüidarə ilə bağlı hüquqi aktlar toplusu" və " Bələdiyyələrin maliyyə hesabatlarının tərtibinə dair məsələlər toplusu" adlı maarifləndirici vəsaitlər təqdim edilib.

Məlumat üçün bildirək ki, analoji tədbir Sədərək rayonunda da keçirilib.

**Xəbərlər şöbəsi**

## Tibbi xidmətin əhatə dairəsi genişləndirilib

***İyun ayında Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini davam etdirmiş, səhiyyə sisteminin yenidən qurulması və müasir standartlara uyğunlaşdırılması, ixtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması diqqət mərkəzində saxlanılmışdır.***

Ölkəmizin paytaxtında fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi və aztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinə və cərrahi əməliyyatlarının təşkili davam etdirilmişdir. Azərbaycan Səhiyyə Nazirliyi Mərkəzi Neftçilər Xəstəxanasının Ürək və damar xəstəlikləri şöbəsinin 7 nəfərdən ibarət heyəti Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin Kardiocərrahiyyə şöbəsi ilə birgə 8 nəfərdə açıq ürək əməliyyatı, 25 nəfərdə müayinələr aparmışdır.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi ilə yanaşı, Naxçıvan Muxtar Respublika Xəstəxanası, Diaqnostika-Müalicə Mərkəzi, Kardioloji Mərkəz, Mərkəzi Uşaq Xəstəxanası, dispanserlər, rayon mərkəzi xəstəxanaları nəzdində həkim briqadalarının müasir tibbi avadanlıq, cihaz və aparatlar, laboratoriya ilə təchiz olunaraq yerlərə gedişi qrafik əsasında tənzimlənmiş, müayinələrin kütləviliyinə nail olunmuşdur.

İyun ayı ərzində Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin həkim briqadası Şahbuz rayonunun Biçənək kəndində, Naxçıvan Muxtar Respublika Xəstəxanası Ordubad rayonunun Tivi kəndində, Mərkəzi Uşaq Xəstəxanası Babək rayonunun Qahab kəndində, Doğum Mərkəzi Culfa rayonunun Milax kəndində, Kardioloji Mərkəz Şərur rayonundakı Dərəkənddə, rayon mərkəzi xəstəxanaları isə Havuş, Ələkli kəndlərində və Sədərək rayonunda, Biləv, Qarabağlar, Kükü, Ağbulaq, Nəhəcir kəndlərində müasirtipli həkim ambulatoriyalarında, feldşer-mama məntəqələrində əhalini tibbi müayinədən keçirmişlər. Culfa rayonunun Ləkətağ kəndi yaxınlığındakı obalarda 23 nəfər heyvandar və onların ailələri profilaktik tibbi müayinələrə cəlb olunmuşlar.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının Göz xəstəlikləri şöbəsi tərəfindən Şahbuz və Kəngərli rayonlarında 64 nəfər oftalmoloji müayinələrdən keçirilmiş və onlara müvafiq müalicələr təyin olunmuşdur.

Muxtar respublikanın səhiyyə müəssisələri tərəfindən iyun ayında 50-55 yaşlı əhalinin müayinələri aparılmış, 2998 nəfər müayinə olunmuş, 390 nəfər dispanser qeydiyyatına götürülmüşdür.

Ötən ay sertifikasiya imtahanında 142 orta tibb işçisi iştirak etmiş, 113 nəfər zəruri həddi keçə bilmişdir. Lazımi nəticə qazana bilməyən 29 nəfər orta tibb işçisi kurs keçmələri üçün Naxçıvan Tibb Kollecinə göndərilmişdir.

Muxtar respublika ərazisində yoluxucu xəstəliklərə görə epidemioloji vəziyyət sabit olmuş, xüsusi təhlükəli infeksiyalar qeydə alınmamışdır. ZİKA virusunun profilaktikası məqsədilə 60 min 520 kvadratmetr sahədə dezinfeksiya və dezinseksiya tədbirləri aparılmışdır.

Naxçıvan Muxtar Respublika Xəstəxanasında "Stomatologiyada sterilizasiya və dezinfeksiya" mövzusunda elmi-praktik seminar keçirilmişdir.

Naxçıvan Tibb Kolleci ilə Türkiyə Respublikasının Ankara şəhərində fəaliyyət göstərən Xalidə Edip Məslək və Texniki Liseyi ilə əməkdaşlıq haqqında protokol imzalanmışdır.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi 2016-cı ilin iyun ayı ərzində muxtar respublika üzrə 15 nəfəri Bakı şəhər Şağan qəsəbəsində yerləşən Əlillərin Müalicə Pansionatına, 37 nəfəri Mərdəkan qəsəbəsindəki Müharibə və Əmək Veteranları Pansionatına, 19 nəfəri müxtəlif xəstəxanalara müalicəyə göndərmişdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Naxçıvanda qədim tarixi abidələrin, xüsusilə qalaların bərpa olunması bu ərazidəki zəngin mədəni irsi qorumaqla yanaşı, həm də bəşəriyyət tarixinin öyrənilməsinə xidmət edir

## *“Naxçıvan qalaları: tarixdə və günümüzdə” beynəlxalq konfransının iştirakçıları bu fikirdədir*

*Xəbər verdiyimiz kimi, iyulun 9-10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına uyğun olaraq “Naxçıvan qalaları: tarixdə və günümüzdə” mövzusunda beynəlxalq konfrans keçirilib. Konfrans iştirakçıları ilə görüşərək tədbirin əhəmiyyəti barədə söhbət etdik.*

***Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif ƏLİZADƏ “Naxçıvan qalaları: tarixdə və günümüzdə” beynəlxalq konfransının əhəmiyyətini vurğulayaraq dedi:***



– Beynəlxalq konfransın Naxçıvan qalalarına həsr olunması heç də təsadüfi deyil. Tarixboyu Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan diyarı, ilk növbədə, əsas dövlətçilik mərkəzlərindən biri olub. Orta əsrlərdə paytaxtı Naxçıvan şəhəri olan Atabəylər dövləti Azərbaycan xalqına intibah mədəniyyəti bəxş edib, daha sonralar Naxçıvan şahlıq dövləti, Naxçıvan xanlığı yalnız bu diyarın deyil, bütövlükdə, Azərbaycanın siyasi və sosial-mədəni inkişafında əhəmiyyətli rol oynayıb.

Naxçıvan diyarındakı zəngin memarlıq abidələri, onun ayrılmaz tərkib hissəsi olan qalalar məhz Azərbaycan dövlətçilik tarixinin, xalqımızın azadlıq uğrunda mübarizə əzminin simvolları kimi xüsusi əhəmiyyətə malikdir. Bu mənada, “Naxçıvan qalaları: tarixdə və günümüzdə” beynəlxalq konfransı Azərbaycanın ictimai və humanitar elmlərinin inkişafı baxımından əhəmiyyətli olmaqla yanaşı, həm də milli vətənpərvərlik hisslərinin aşılanması, xalqımızın qəhrəmanlıq tarixinin təbliği baxımından da xüsusi məna kəsb edir.

Təqdirəlayiq haldır ki, beynəlxalq konfrans adında da ifadə olunduğu kimi, öz ideya məzmunu və mündəricəsi etibarilə tarix və müasirliyin vəhdətinə əsaslanır. Tarixdə olduğu kimi, bu gün də Naxçıvan müasir Azərbaycanın sosial-siyasi və elmi-mədəni həyatında yerinə yetirdiyi məsuliyyətli və şərəfli missiya baxımından, sözün həqiqi mənasında, müstəqil Azərbaycan dövlətçiliyinin əsas mərkəzlərindən biridir. Hazırda Naxçıvan Muxtar Respublikası nəinki Azərbaycanın, geniş mənada dünyadakı hərtərəfli inkişafın önündə gedir.

Konfransın digər bir əhəmiyyəti isə müasir şəraitdə Azərbaycanın apardığı informasiya müharibəsi ilə bağlı bu siyasətə dəstək verməsidir. Hamınıza yaxşı məlumdur ki, bütün beynəlxalq hüquq prinsiplərinin, ümumbəşəri insani dəyərlərin ziddinə olaraq Azərbaycan torpaqlarının bir hissəsini işğal etmiş ermənilərin digər qondarma iddialarının əsas hədəflərindən biri də Azərbaycanın qədim diyarı olan Naxçıvandır. Onlar hər cür yalan və uydurmanı özlərinin elmi yanaşmasına çevirərək bu regionla bağlı təhrif olunmuş tarixi məlumatlar yaymaqdan çəkinmirlər. Ötən il akademiyanın 70 illik yubileyinə həsr olunmuş təntənəli iclasda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xüsusi olaraq qeyd etdi ki, informasiya müharibəsi şəraitində alimlərimizin üzərinə böyük məsuliyyət düşür. Cənab Prezident bu baxımdan tarix elminin inkişafını mühüm prioritetlərdən biri kimi müəyyənləşdirdi. Bu mənada, bu konfrans həm də cənab Prezidentin çağırışına layiqli bir cavabdır.

Bunu da xüsusi qeyd etmək istərdim ki, çoxillik axtarışlar əsasında muxtar respublikada yaradılmış sanballı ensiklopedik nəşrlər, salnamələr və antologiyalar yüksək elmi səviyyədə qəbul edilən ciddi və əhəmiyyətli əsərlərdir. Biz bu fikirdəyik ki, Naxçıvanda yaşayıb-yaradan elm adamlarının çoxillik birgə səylərinin nəticəsində meydana çıxmış 3 cildlik “Naxçıvan tarixi” monoqrafik tədqiqatı son illərdə Azərbaycanda humanitar və ictimai elmlər sahəsində meydana çıxmış ən sanballı nəşrlərdən biridir.

Keçmiş Sovet İttifaqı dövründə, bütövlükdə, Azərbaycanda olduğu kimi, Naxçıvan haqqında yazılan elmi əsərlərdə də real tarixdən, gerçəklikdən daha çox ideologiya aparıcı mövqe tutduğu üçün regionun tarixi ilə bağlı bir çox mətləblərdən əsaslı şəkildə bəhs etmək mümkün olmayıb. Naxçıvan Muxtar Respublikasında tarix elmi müstəqil dövlətçilik maraqları və milli maraqlar əsasında yalnız Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra daha məqsədəuyğun surətdə və hərtərəfli şəkildə inkişaf edib. Xüsusən ulu öndər Heydər Əliyevin böyük uzaqgörənliyi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılması ilə regionda elm sahəsindəki çoxəsrlik ənənələr yenidən canlandırılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun muxtar respublikanın bütün istiqamətlər üzrə və yüksək səviyyədə inkişaf etməsinə uğurla xidmət edən özünəməxsus idarəetmə sistemində elmin və təhsilin xüsusi yeri vardır. Məhz bu siyasət nəticəsində bu gün Naxçıvanda elm yeni və daha yüksək mərhələyə qədəm qoyub. Naxçıvan tarix elminin inkişafı istiqamətində də ciddi addımlar atılır, tarixi abidələr bərpa olunur, onların qorunaraq gələcək nəsillərə saxlanılması istiqamətində kompleks tədbirlər həyata keçirilir. Bu yaxınlarda Əlincəqala, Gülüstan türbəsi bərpa edilib, “Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 4 iyul 2016-cı il tarixdə Sərəncam imzalayıb. Azərbaycanın elmi ictimaiyyəti bütün bu addımları alqışlayır.

Qədim və zəngin mədəniyyətə, güclü dövlətçilik ənənələrinə malik olan Naxçıvanın memarlıq abidələrinə, xalqımızın qəhrəmanlıq və vətənpərvərlik simvolu olan Naxçıvan qalalarına həsr olunmuş belə bir tədbirdə iştirak etdiyimə görə məmnunluğumu bir daha ifadə etmək istərdim.

***Oktay BELLİ – Türkiyənin İstanbul Universitetinin müəllimi, tarix üzrə elmlər doktoru:***



– “Naxçıvan qalaları: tarixdə və günümüzdə” beynəlxalq konfransının keçirilməsini çox yüksək qiymətləndirirəm. Muxtar respublikanın ərazisindəki qalalar Naxçıvanın qədim türk yurdu olduğunu birmənalı şəkildə sübuta yetirir. Bu qalaları “Türkün tarixi möhürü” də adlandırmaq olar.

Mənim beynəlxalq konfransdakı çıxışım “Tunc və Erkən Dəmir dövründə Şərqi Anadolu və Naxçıvan qalaları arasında oxşarlıq” mövzusunda idi. Orada bu həqiqəti xüsusilə vurğuladım ki, Naxçıvan dünya əhəmiyyətli abidələrlə zəngin bir diyardır. Son illər Naxçıvanda qədim tarixi abidələrin, xüsusilə qalaların bərpa olunması bu ərazidəki zəngin mədəni irsi qorumaqla yanaşı, həm də bəşəriyyət tarixinin öyrənilməsinə xidmət edir. Keçmişlə gələcək arasında körpü yaradan Naxçıvan qalaları türklərin mübarizlik və qəhrəmanlıq tarixindən soraq verir. Şərqi Anadoluda və Naxçıvanda aparılan arxeoloji qazıntılar zamanı aşkar olunan qalalar, tapılan maddi-mədəniyyət nümunələri bir daha təsdiq etdi ki, hər iki ərazidə mövcud olan qalalar eyni tikinti xüsusiyyətlərinə malikdir. Lakin Tunc və Erkən Dəmir dövründə əcdadlarımız tərəfindən yaradılan ən möhtəşəm qalalar Naxçıvan ərazisindədir. “Naxçıvan qalaları: tarixdə və günümüzdə” beynəlxalq konfransı Naxçıvan qalalarının öyrənilməsində birgə səylərin göstərilməsinə imkan verəcəkdir.

Naxçıvandakı qalalar yüz illərə şahidlik edib. Onlar zirvələrdə səssiz dayanan tariximizdir. Əgər biz bu abidələrə biganə yanaşsaq, onda keçmişimizlə olan sıx bağlarımızı qoparmış olarıq. Bu, bizim əleyhimizə olardı. Ona görə də qalaların qorunması milli varlığımızın qorunması qədər əhəmiyyətlidir. Naxçıvan Muxtar Respublikasındakı tarixi abidələrin, o cümlədən Naxçıvanqalanın, Əlincəqala kimi tarixə meydan oxuyan qəhrəmanlıq, yenilməzlik simvolu olan möhtəşəm qalanın bərpa edilməsi o qədər əhəmiyyətlidir ki, bunu sözlə ifadə etmək mümkün deyil. Çünki bu qalalar tariximizin əsaslı bir parçası olmaqla yanaşı, insanların vətənpərvər ruhda böyüməsində, şəxsiyyət kimi formalaşmasında xüsusi rol oynayır. Bunları daim gündəmdə saxlamaq, qorumaq, bərpa etmək bizim tarix qarşımızdakı borcumuzdur.

Mən 1997-ci ildən bu tərəfə dəfələrlə Naxçıvanda olmuşam. Həmin illərdə Naxçıvan çətin günlərini yaşayırdı. Ancaq insanlar rəhbərləri ətrafında sıx birləşdilər, düşmənə qarşı birgə mübarizə apardılar, çalışdılar, necə deyərlər, zülmət qaranlıqlardan inkişafa doğru yol açdılar. Naxçıvan naminə, Azərbaycan naminə durmadan fəaliyyət göstərdilər. Və buna nail oldular. Bu gün Naxçıvan sürətlə inkişaf edir. Qədim diyar regionun parlayan ulduzuna çevrilib. Buna görə də mən qədim türk yurdu olan Naxçıvanla fəxr edirəm!

***Selin NUGENT – ABŞ-dakı Ohio Universitetinin dissertantı:***



– Naxçıvanda çox sayda qədim qalalar mövcuddur. Bu qalalarda tədqiqatların aparılması təkcə Azərbaycan üçün deyil, ümumilikdə, bütün dünya üçün əhəmiyyətlidir. Çünki aparılan tədqiqatlarda həm də dünyanın qədim tarixinin öyrənilməsi istiqamətində mühüm işlər görülür. “Naxçıvan qalaları: tarixdə və günümüzdə” beynəlxalq konfransı da bu baxımdan əhəmiyyətlidir. Buradakı elmi məruzələrdə çox önəmli tarixi məsələlərə toxunuldu, elmi nəticələr əldə edildi.

Mən Azərbaycan-ABŞ arxeoloji ekspedisiyasının birgə fəaliyyəti çərçivəsində buradayam. 2006-cı ildən muxtar respublikada müxtəlif ərazilərdə arxeoloji qazıntılar aparan ekspedisiya tərəfindən Naxçıvanın Tunc və Dəmir dövrlərinə aid abidələri araşdırılıb, II Kültəpə və Maxta Kültəpəsində arxeoloji qazıntılar aparılıb. Biz, yəni ABŞ-dan gələn arxeoloqlar AMEA Naxçıvan Bölməsinin əməkdaşları ilə birlikdə Naxçıvanda, xüsusilə Arpaçay vadisində olan tarix və mədəniyyət abidələrinin qeydə alınması və pasportlaşdırılması prosesində də iştirak etmişik. Başlıca olaraq Şərur, Sədərək və Kəngərli rayonlarının ərazisində tədqiqat aparırıq. Hazırda Şərur rayonu ərazisindəki Qızqalada tədqiqat işlərində iştirak edirəm.

İndiyədək Boyalı qablar mədəniyyətinə məxsus insanların harada yaşaması ilə bağlı aydın təsəvvür yox idi. Bizim iştirakımızla Boyalı qablar mədəniyyətinə aid yeni abidələrin aşkar olunması, xüsusilə Qızqala yaşayış yerində qalın mədəni təbəqənin üzə çıxarılması çox sevindiricidir. Artıq Boyalı qablar mədəniyyətini yaradan tayfaların məhz Naxçıvan ərazisində yaşadığı təsdiq edilib və biz bu barədə beynəlxalq konfranslarda məruzələrlə çıxış edirik.

✍ Rauf ƏLİYEV

# Naxçıvanda keçirilən beynəlxalq konfrans başa çatıb

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına uyğun olaraq keçirilən “Naxçıvan qalaları: tarixdə və günümüzdə” mövzusunda beynəlxalq konfrans başa çatıb.***

İyulun 10-da beynəlxalq tədbirin 4 bölmə üzrə iclasları keçirilib. “Naxçıvan qalalarının tarixi” mövzusunu əhatə edən birinci bölmədə tarix üzrə elmlər doktoru, professor Abbas Seyidovun “Naxçıvanqalanın qədim yeraltı yolları”, Amerika Birləşmiş Ştatlarının Corciya Universitetinin mütəxəssisi Robert Braynın “Naxçıvanın müdafiə tikintilərinin inkişaf xüsusiyyətləri”, professor Vidadi Muradovun “Naxçıvan diyarında dulusçuluq sənətinin inkişafı tarixindən (XVIII-XX əsrin əvvəlləri)”, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları, tarix üzrə fəlsəfə doktorları Qəhrəman Ağayevin “Şahtaxtı qalası” və Təvəkkül Əliyevin “Naxçıvan diyarının qədim əhalisinin təhlükəsizliyində qalaların rolu”, AMEA Naxçıvan Bölməsinin əməkdaşları, tarix üzrə fəlsəfə doktorları Asəf Orucovun “Naxçıvan qala-şəhərləri və əhalinin məşğuliyyəti” və Musa Quliyevin “Abbasabad qalası” mövzularında məruzələri olub.



Bundan başqa, “Naxçıvan” Universitetinin dosenti İbrahim Kazımbəyli “Naxçıvan və İrəvan qalalarının çar Rusiyasına qarşı müqavimət hərəkatı”, Naxçıvan Dövlət Universitetinin dosenti Rəsul Bağırov “Sum qalası”, AMEA Naxçıvan Bölməsinin əməkdaşlarından iqtisad üzrə fəlsəfə doktoru, dosent Cavadxan Qasımov “Naxçıvan Muxtar Respublikasında turizmin inkişafında qalaların əhəmiyyəti”, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimov “Naxçıvan qalaları rus mənbələrində”, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun dissertantı Leyla Həsənzadə “Alman səyyahları Naxçıvan qalaları haqqında”, Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti Aytən Mehdiyeva “Naxçıvan “Qız qalaları”nın xarakterik xüsusiyyətləri” mövzularında məruzələr ediblər.

“Naxçıvan qalalarının arxeoloji tədqiqi” üzrə keçirilən ikinci bölmə iclasında AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev “Orta Tunc dövrünün qalatipli yaşayış yerləri” mövzusunda məruzə edib. İclasda AMEA Naxçıvan Bölməsinin əməkdaşlarından dosent Toğrul Xəlilovun “Naxçıvanın Antik və Orta əsrlər dövrü qalalarının yayılma arealı”, tarix üzrə fəlsəfə doktoru Zeynəb Quliyevanın “Naxçıvanın qədim müdafiə tikililəri qala tikmə mədəniyyətinin əsası kimi”, Amerika Birləşmiş Ştatlarının Con Hopkins Universitetinin dissertantı Cenefer Severidanın “Oğlanqalanın tarixi-arxeoloji funksiyası”, Ohio Universitetinin dissertantı Selin Nugentin “Qızqala kurqanları və onların dəfn adəti” mövzularında məruzələri də maraqlı faktlarla diqqəti cəlb edib.

Üçüncü bölmənin iclası AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin sədrliyi ilə “Kitabi-Dədə Qorqud” dastanlarında, tarixdə və günümüzdə Əlincəqala” mövzusunda məruzəsi ilə başlayıb. Bölmə iclasını AMEA Naxçıvan Bölməsinin dosentləri Firudin Rzayev “Əlincə, Qazançı, Süzüt qala adlarının etimologiyası və tarixinə bir baxış”, Ramiz Qasımov “Əlincəqala ədəbi-bədii nümunələrdə”, tarix üzrə fəlsəfə doktoru İlhami Əliyev “Əlincəqala Səfəvilər dövründə”, filologiya üzrə fəlsəfə doktoru Əli Həşimov “Əlincə qalası tarixi-bədii nəsrdə” mövzularında məruzələr ilə davam etdiriblər.

Dördüncü bölmə iclasında AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin “Qız qalası toponimi və onun öyrənilməsi tarixi”, AMEA Ədəbiyyat İnstitutunun əməkdaşlarından professor Tahirə Məmmədin “Oğlanqala və Qız qalası qavramlarının arxetip başlanğıcı”, filologiya üzrə fəlsəfə doktoru, dosent Mərziyyə Nəcəfovanın “Azərbaycan ədəbiyyatında Naxçıvan qalaları”, AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Əkrəm Hüseynzadənin “Naxçıvan mifoloji mətnlərində qalalar”, Naxçıvan Dövlət Universitetinin dosenti Nəzakət İsmayılovanın “Naxçıvan Muxtar Respublikasında milli-mənəvi irsin qorunması və qalaların sirri” mövzularında məruzələri olub, məruzələr ətrafında müzakirələr aparılıb.

Həmin gün AMEA Naxçıvan Bölməsində konfransın yekun iclası keçirilib, bölmə rəhbərlərinin hesabatları dinlənilib, konfransda əldə edilən nəticələr müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib.

✍ Səbuhi HÜSEYNOV

## Alman texnologiyasına sovetqaydası yanaşmanın “faydaları”

### *Yaxud bütün texnikalarla “öz dili ilə” danışmaq imkanı olan müəssisə – “Gəmiqaya Nəqliyyat” MMC*

***Bir neçə il bundan əvvəlin söhbətidir. Atasının uzun zamandır topladığı məvaciblə özünə “Mercedes” markalı minik avtomobili alan, sevincinin həddi-hüdudu olmayan Nəzəralı hərdənbir mənim “VAZ-2106” markalı maşınımın yanında saxlayar:***

– Maşınımın şüşələrinə işarə edərək, aynabəndi təzə vurdurmusunuz? (o vaxt rəngli və ya plyonkalı şüşələr modda idi). Şüşəni niyə endirmisiniz? İstidirsə kondisioneri vurun işləsin də. Yadımdan çıxıb, sizin “Jiquli”nin sürət qutusu avtomatdır, yoxsa mexaniki?, – deyib zarafat edər, sonra da bu maşını dəyişin, özünüzə belə bir avtomobil alın, – deyərək ağıllı məsləhət verər, komfortlu avtomobilini sürüb gedərdi. Onu da deyim ki, Nəzəralı çox ağıllı oğlandır. Bu ağıllı məsləhətini də ömrü boyu piyada gəzənlərə yox, ancaq avtomobili olanlara verərdi. Ancaq Nəzəralı bilmirdi ki, elə komfortlu avtomobilin komfort xərci ilə yanaşı, “komfort” da dərdi var imiş.

Bir gün axşamçağı toran vuran zaman Kəngərli rayonundan Naxçıvan şəhərinə dönərkən Duzdağ yoluna tərəf bir avtomobilin başına qarışqa günəbaxan tumunun başına yığışan kimi yığışan adamlar diqqətimi cəlb etdi. Maşını saxlayıb kömək etmək üçün onlara yaxınlaşdım. Baxdım ki, bu, bizim Nəzəralı, başına yığışdıqları isə onun komfortlu “Mercedes” markalı avtomobilidir. Məni görüb əl saxladılar. Nəfəslərini dərdilər.

– Bu nə məsələdir? – deyə soruşdum.

– Əlinin arxası ilə alnının tərini silən Nəzəralı:

– Bilmirəm. Mühərriki işə salmaq mümkün deyil. Şəhərdə döngə, dalanlarda yerləşən o təmir sexi qalmadı ki, göstərməyəm. Əlacım kəsilib. Fikirləşdim ki, yoldaşların köməkliyi ilə yük maşınına mindirib göndərəm Bakıya.

– Orada təmir edə biləcəklər?

– Hə. Mobil telefonla danışdım. Usta dedi ki, göndər gəlsin baxaq.

Bir neçə saatlıq “Mercedes əməliyyatı” uğurlu sonluqla başa çatdı. Nəzəralının “Mercedes”i ağır yük maşınında getdi Bakıya. Təqribən, biraylıq, “ezamiyyət”dən sonra Nəzəralının “Mercedes”i döndü Naxçıvana. Özü də hər döngədəki sexlərdə “düzəltdikləri” hissələrlə birlikdə Nəzəralı birillik əməkhaqqı məbləğində “ezamiyyə” xərci çəkdikdən sonra. Bu “ezamiyyə” xərci onsuz da ağıllı olan Nəzəralını daha da ağıllandırdı. Artıq komfort avtomobilini “06” markalı “Jiquli”min yanında saxlayar: – Bilmirsən, köhnə təkər harada satılır? – deyərdi.

– Bu avtomobilinə köhnə təkər niyə vurursan? Mağazalarda təzə təkərlər var.

Nəzəralı dediyim məbləği eşidər-eşitməz başını bulayıb, udquna-udquna ehmalca avtomobilinə əyləşib, kondisionerli avtomobilini yanacağa qənaət etsin deyə, kondisionersiz işlədərək köhnə təkər axtarışına çıxdı. Amma təkər problemini həll etməmiş “Mercedes”in ehtiyat benzin miqdarını göstərən hissəsi sıradan çıxdı. Xoşbəxtlikdən “Mercedes” bu dəfə Bakıya getmədi. Maşının bütün elektrik sistemini söküb tökdülər yerə. Ancaq sökülənləri yerinə yığmaq da bir problem oldu. Düz iki həftə də Bakıdan ustanın mobil telefonla verdiyi məsləhətə qulaq asa-asa hissələri yığdılar yerinə. Amma necə yığdılar, onu zaman göstərdi. Çox keçmədi ki, elektrik sistemində yaranan qısaqapanmadan avtomobilin bütün lampaları sıradan çıxdı. Beləcə, alman texnologiyasına sovetqaydası yanaşmaq Nəzəralıya çox baha başa gəldi. Onsuz da maliyyə məsələləri “qaranlıq” olan Nəzəralının büdcəsində tamamilə “zülmət” yarandı.

Bu hal tək Nəzəralının deyil, xaricdə istehsal olunmuş avtomobilləri olan hər bir sahibkarın üzləşdikləri problem idi. Elə bu səbəbdəndir ki, hər bir sahibkar əvvəllər xaricdə istehsal olunmuş, istər minik, istərsə də yük avtomobillərini almaqda tərəddüd edir, alınan avtomobillərdə yaranan hər hansı bir nasazlığın aradan qaldırılması üçün ya Bakıya ixtisaslaşmış servis xidməti göstərən müəssisələrə göndərmək, ya da oradan mütəxəssis çağırmaq məcburiyyətində qalır, əlavə xərc və vaxt itkisi ilə üzləşir, ehtiyat hissələrini tapmaqda çətinlik çəkirdi. Müxtəlif markalı yük və minik avtomobillərinə yüksəkkeyfiyyətli servis xidmətləri göstərən “Gəmiqaya Nəqliyyat” Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyətə başlaması ilə bu problem aradan qaldırıldı. Müəssisədə bütün avtomobillərə, o cümlədən xaricdə istehsal olunmuş “Mercedes”, “Hyundai”, “Toyota”, “Nissan”, “BMW”, “Ford” və digər markalardan olan yük və minik avtomobillərinə yüksək səviyyədə servis xidmətlərinin göstərilməsinə və lazımi ehtiyat hissələrinin alınıb muxtar respublikaya gətirilməsinə əlverişli şərait yaradılıb. Digər sahibkarlar kimi, bu müəssisə də özəl bölməyə, sahibkarlıq fəaliyyətinə yaradılmış münbit şəraitdən bəhrələnib. Naxçıvan şəhərində – dairəvi avtomobil yolunun kənarında müəssisə üçün ayrılmış ərazidə inzibati bina, iaşə xidmətinin göstərilməsi üçün yeməkxana, ehtiyat hissələrinin saxlanılması üçün anbar, müasir avadanlıqlarla təmin olunmuş laboratoriya, boya, tokar, maşın-mexanizmlərin, yük və minik avtomobillərinin, mühərriklərin, dizel-nasos farsunkalarının təmiri sexləri tikilib, Almaniya, Yaponiya, Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar alınıb quraşdırılıb. 2011-ci ildən fəaliyyətə başlayan müəssisədə yüksəkkeyfiyyətli servis xidmətləri göstərilir.

Avtomobillərin texniki müayinələrinin təxmini aparılması, primitiv üsullarla təmir edilməsi zamanı çoxdan keçib. Burada müasir texnoloji avadanlıqlardan səmərəli istifadə olunmaqla yüksəkkeyfiyyətli texniki müayinə aparılması və servis xidmətlərinin göstərilməsi üçün inkişaf etmiş ölkələrin təcrübələrindən istifadə olunur. Yük və minik avtomobillərinin təmiri sexində Almaniya istehsalı olan avadanlıqlarla təmin edilmiş avtomobillərin diaqnostik müayinə mərkəzi fəaliyyət göstərir. Burada ABS, ASR, ESP, mühərrik elektronikası, kondisioner, digital kondisioner, avtomatik ötürücü qutu, pultla idarəetmə mərkəzi, avtomatik şüşələr, avtokompüter, alovlanma və işıq sistemləri, kilid ETS naviqasiyası, qayış gərdirmə mexanizmi texniki müayinədən keçirilir. Kompüterdə əks olunan göstəricilərin surətləri çıxarılıb müştəriyə təqdim olunur və həmin məlumatlara uyğun olaraq sonrakı mərhələdə servis xidmətləri göstərilir, mövcud nasazlıqlar aradan qaldırılır. İşıqların tənzimlənməsi, disklərin düzəldilməsi, enjektorların yuyulması, əyləc və amortizatorların təmir edilməsi, təkərlərin balans olunması, yük və minik avtomobillərinin qabaq və arxa təkərlərində olan mailliliyin aradan qaldırılması, mühərriklərin yenilənməsi, elektrik avadanlıqlarının əvəz olunması, dizellə işləyən avtomobillərin farsunkalarının təmizlənməsi və yenisi ilə əvəz olunması kompüterlə təmin olunmuş ayrı-ayrı avadanlıqlarda keyfiyyətlə yerinə yetirilir.





Boya sexində yük və minik avtomobillərinin qismən və ya tam şəkildə boyanması üçün Almaniya istehsalı olan havalandırma və istilik sistemi ilə təmin olunmuş, kompüterlə idarəolunan xüsusi qurğu quraşdırılıb. İlkin olaraq avtomobillərdən nümunələr götürülüb müəssisədə fəaliyyət göstərən müasir texnoloji avadanlıqlarla təmin olunmuş laboratoriyada analizdən keçirilir. Boyanın növü, tərkibi və rəngi müəyyənləşdirildikdən sonra laboratoriyanın göstəricilərinə uyğun olaraq boya hazırlanır. Boyanın vurulması və qurudulması xüsusi kabinədə aparılır ki, bu da görülən işin keyfiyyətində mühüm amildir.

Müəssisədə fəaliyyət göstərən səyyari servis xidmətinin yüksək səviyyədə aparılması üçün ixtisaslı mütəxəssislər cəlb olunub, xüsusi avtomobillər ayrılıb, Almaniya istehsalı olan qaynaq və kontakt qaynaq avadanlıqları ilə təmin olunub ki, bu da iş prosesində avtomobillərdə yaranan nasazlıqların yerindəcə aradan qaldırılmasına və lazım olduqda evakuatorla müəssisəyə gətirib təmir olunmasına əlverişli şərait yaradıb. Həmçinin əvvəllər qəzaya uğrayan avtomobillərin bərpası primitiv üsullarla, çox vaxt sərf olunmaqla aparılırdısa, indi bu problem aradan qaldırılıb, müəssisəyə İtaliya istehsalı olan xüsusi avadanlıq alınıb gətirilib.

Servis xidmətlərinin yüksək keyfiyyətlə aparılması bir tərəfdən müasir texnoloji avadanlıqlar və onları idarəedən ixtisaslı mütəxəssislərdən asılıdırsa, digər tərəfdən də əvəzlənən ehtiyat hissələrinin keyfiyyətli olmasından asılıdır. Elə bu səbəbdəndir ki, avtomobillərin ehtiyat hissələrinin birbaşa istehsalçı müəssisələrdən alınıb gətirilməsi diqqət mərkəzində saxlanılıb, müəssisənin anbarında kifayət qədər ehtiyat yaradılıb.

Əhalinin gəlirlərinin artırılması, həyat standartlarının daha da yaxşılaşması qarşıya qoyulan vəzifələrdəndir. Bu inkişaf prosesi əhali qrupunun satın aldığı daşınar əmlak qismində avtomobillərin say tərkibi üzrə dinamikada daha aydın müşahidə olunur. Muxtar respublikamızda həyata keçirilən irimiqyaslı layihələrin, genişmiqyaslı quruculuq tədbirlərinin vaxtında və keyfiyyətlə aparılması üçün bölgəmizin relyefinə uyğun, daha yaxşı manevr etmək imkanlarına malik müasir maşın-mexanizmlər və ağırtonnajlı yük avtomobilləri alınıb gətirilir.

***Yeni xidmət sahələrinin yaradılması avtomobillərə göstərilən yüksəkkeyfiyyətli servis xidmətləri ilə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasına da əlverişli şərait yaradıb. Əsasən, mütəxəssislərin və öz işini mükəmməl bilən sənətkarların çalışdığı müəssisədə texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunmaqla normal iş şəraiti yaradılıb, işçilər yüksək əməkhaqqı, gündə bir dəfə isti yemək və xüsusi geyim formaları ilə təmin olunub, gediş-gəliş üçün avtobus ayrılıb. Göstərilən qayğıya əməli işlə cavab verməyə çalışan kollektiv ayrı-ayrı idarə, müəssisə, təşkilatların, özəl qurumların və fərdi vətəndaşların verdiyi sifarişlərə uyğun olaraq maşın-mexanizmlərə, yük və minik avtomobillərinə yüksəkkeyfiyyətli servis xidmətlərinin göstərilməsi üçün mövcud imkanlardan səmərəli istifadə edir.***

Kərəm HƏSƏNOV

---

***Hər bir ölkənin əhalisinin sağlamlıq səviyyəsi ətraf mühitin qorunmasından əhəmiyyətli dərəcədə asılıdır. Ona görə də muxtar respublikamızda əhalinin sağlamlığının mühafizəsinə və möhkəmləndirilməsinə yönəldilmiş ardıcıl və genişmiqyaslı tədbirlər daim diqqət mərkəzində saxlanılır.***

## İstehlakçıların bunları bilməsi vacibdir

Yay fəslinin isti günlərini yaşadığımız bir vaxtda isə bu məsələ daha böyük aktuallıq kəsb edir. Belə ki, özünəməxsus qayğıları olan bu fəsildə insanlar Günəşin yandırıcı şüaları ilə yanaşı, həm də qida zəhərlənmələrindən qorunmağa məcbur olurlar. Çünki bu fəsildə ərzaq məhsulları daha tez keyfiyyətini itirir və insanların sağlamlığı üçün təhlükə yaradır.

Ət və ət məhsulları insanların qidalanmasında əsas yer tutan ərzaq məhsullarından biridir. Bu məhsulları alarkən hər bir istehlakçı onun keyfiyyətli olduğuna əmin olmaq istəyir. Ancaq istehlakçılar bir çox hallarda ət alarkən onun keyfiyyətinin müəyyənləşdirilməsi ilə bağlı problemlə üzləşirlər. Bu baxımdan istehlakçılar üçün faydalı ola biləcək bir sıra məsələlər haqqında məlumat verəcəyik.

Ət və ət məhsulları yüksək bioloji dəyərli qida kimi mühüm əhəmiyyətə malikdir. Ətin tərkibində orqanizmin inkişafı, eləcə də normal həyat fəaliyyəti üçün lazım olan zülal, yağ, vitamin və mineral maddələr var. Ət və ət məhsulları qrupuna ət, quş əti, kolbasalar, ət konservləri, yarımfabrikatlar və sair daxildir. Ət məhsullarının tərkibində bir çox vitaminlər və insan orqanizminə lazım olan bütün mineral maddələr var. Tərkibində yağın və zülalın miqdarı bərabər olan ət ən yüksək dada malik olmaqla həm də yaxşı mənimsənilir. Tərkibində orta hesabla 14-17 faiz zülal, 2-3 faizdən 20-30 faizədək yağ və digər mineral maddə olduqda ət yüksəkkeyfiyyətli sayılır.

Satışa çıxarılan ət laboratoriyada analizdən keçməli və üzərində baytar həkimin möhürü olmalıdır. Satış məntəqələrində üzərində ancaq oval formalı möhürü olan ətin satılmasına icazə verilir. Ət şaqqalarının üzərində möhür kürək və bud hissələrinə vurulur. Quş ətində isə möhür boyun və budun çöl tərəfinə vurulur. Ət məhsulları alarkən onun keyfiyyətinə əmin olmaq üçün satıcıdan onun keyfiyyətini və təhlükəsizliyini təsdiq edən sənədləri (baytarlıq şəhadətnaməsi, uyğunluq və gigiyenik sertifikatları) tələb etmək istehlakçının hüququdur və satıcı bunu təmin etməyə borcludur.

Ət satışı obyektləri bütün sanitar və gigiyenik normalara cavab verməli, eyni zamanda ət satışı ilə məşğul olanlar vaxtaşırı tibbi müayinədən keçməlidir. Yalnız bu tələblərə cavab verən obyektlərdən həmin məhsulları almaq tövsiyə olunur. Eyni zamanda nəzərə alın ki, mövcud ticarət qaydalarına görə ət məhsullarının bir dəfədən artıq dondurulduqdan sonra satılması qadağandır. Belə halda ətdə olan bütün zəruri maddələr keyfiyyətini itirmiş olur.

Qablaşdırılmış ət və ət məhsullarının etiketində məhsulun adı və növü, istehsalçının adı və ünvanı, məhsulun tərkibi, termik vəziyyəti (soyudulmuş, dondurulmuş və sair), istehsal və qablaşdırma tarixi, saxlanma müddəti və şəraiti, qida əlavələri, aromatik əlavələr, bioloji aktiv qatışıqlar və digər inqrediyentlər, faydalılığı haqqında məlumat, məhsulun hazırlanma üsulu, sertifikatlaşması barədə məlumatlar olmalıdır.

Qablaşdırılmış ətin yararlılıq müddəti istehsalçı tərəfindən müəyyən olunur və məhsulun etiketində göstərilir. Təzə ət üçün isə malın kəsilmə tarixi və yararlılıq müddəti göstərilmiş baytarlıq şəhadətnaməsinin tələb etmək lazımdır.

Ət konservlərinin qapağının üzərində mütləq qabarıq şəkildə döymə üsulu ilə yazılar olmalıdır. Qabın əzilməsi, paslanması və ya üzərində yararlılıq müddətinin göstərilməməsi onun keyfiyyətli olmasına ciddi şübhələr yaradır. Bu kimi məhsullarla rastlaşdıqda onları almaqdan çəkinin.

Dondurulmuş ət kameralarda -18°C-dən yuxarı olmayan temperaturda saxlanılır. Donu açılmış ət təzə ətin xüsusiyyətlərinə malik olmalı və mümkün qədər tez bişirilməlidir.

Ət alarkən onun xarici görünüşünə və iyinə diqqət yetirmək lazımdır. Köhnə ətin tərkibindəki piyin miqdarı az və tünd rəngli olur. Təzə ət özünəxas spesifik iyə malik (müvafiq heyvan növü üçün xarakterik), rəngi açıq çəhrayıdan tünd qırmızıya qədər olur. Kəsikdə ət sıx, elastik olmaqla, barmaqla basıldıqda əmələ gələn çökək tez düzəlməlidir. Təzəliyi şübhə doğuran və ya xarab olmuş əti almayın. Solğun, yapışqan, təzə ətə xas olmayan iyi olan ətdən istifadə etmək məsləhət görülmür. Belə ətin istehlakı xəstəliktörədən mikrobların inkişafı üçün əsas mənbələrdən biridir və ərzaq zəhərlənməsinə səbəb ola bilər.

*Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti*

## Ağbulaq İstirahət Mərkəzinin budəfəki qonaqları voleybolçular olub

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Voleybol Federasiyasının birgə təşkilatçılığı ilə iyulun 8-9-da Ağbulaq İstirahət Mərkəzində 45 voleybolçunun istirahəti təşkil edilib.***



Mərkəzdə voleybolçular proqrama uyğun təşkil edilmiş oyunlarda iştirak ediblər. Şahmat, dama kimi zəka oyunları böyük marağa səbəb olub. Bununla yanaşı, voleybolçular Ağbulaq kəndi ərazisindəki təbiət abidələri ilə tanış olublar, onlar üçün vətənpərvərlik mövzusunda "Nuh yurdu – Naxçıvan" sənədli filmi nümayiş etdirilib. Növbəti gün isə federasiyanın yetirmələri əyləncəli oyunlarda iştirak edib, vətənpərvərlik mövzusunda mahnılar dinləyiblər. Onlar arasında təşkil edilən futbol və voleybol yarışları da yaddaqalan olub.

Qeyd edək ki, cari ilin mart ayının 18-də muxtar respublika Ali Məclisində Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə muxtar respublika rəhbərinin tapşırıqlarına əsasən, hər həftə Naxçıvanda fəaliyyət göstərən idman federasiyaları üzvlərinin Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil olunur.

**Xəbərlər şöbəsi**

## Kirayə haqlarından vergilər necə hesablanır?

***Son dövrlər daşınan və daşınmaz əmlak sahibləri tərəfindən icarəhaqlarından verginin hesablanması və ödənilməsi qaydaları ilə bağlı olaraq oxucularımız müxtəlif suallarla müraciət edirlər. Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin Qanunsuz sahibkarlığın aşkar edilməsi şöbəsinin rəisi Rəşad Əliyevlə müsahibəmizin mövzusu da əmlak icarəsi və onun vergiyə cəlb olunması məsələləri barədədir:***

***– Rəşad müəllim, əmlak icarəsi ilə bağlı vergilər necə hesablanır və ödəniş necə həyata keçirilir?***

– Əvvəlcə, onu bildirim ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 700.1-ci maddəsinə əsasən, icarə müqaviləsi əmlak kirayəsi müqaviləsidir. Bu müqaviləyə əsasən kirayə verən (icarəyəverən) kirayəçiyə (icarəçiyə) icarəyə götürdüyü obyektdən və ya hüquqdan istifadə ilə yanaşı, bəhərdən istifadə etmək və gəlir götürmək hüququ da verilib. Məhz buna görə də icarəçi əmlak sahibinə müəyyənləşdirilmiş icarəhaqqı ödəməyə borcludur.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 124.1-ci maddəsinə əsasən, daşınan və daşınmaz əmlak üçün icarəhaqqından ödəmə mənbəyində 14 faiz dərəcə ilə vergi tutulur.

İcarəhaqqı vergi ödəyicisi kimi uçotda olmayan fiziki şəxs tərəfindən ödənildikdə icarəyəverən bu maddəyə uyğun olaraq 14 faiz dərəcə ilə vergini özü ödəyir və Vergi Məcəlləsinin 33-cü və 149-cu maddələrinə uyğun olaraq vergi uçotuna alınıb bəyannamə verir.

Əmlak kirayəsi müqaviləsinin tərəfləri fiziki şəxslər olduğu halda, kirayə haqlarından verginin hesablanması və ödənilməsi aşağıdakı qaydada həyata keçirilir.

Əmlakı kirayəyə götürən fiziki şəxs vergi ödəyicisi kimi vergi orqanında uçotda olduğu halda (yəni VÖEN-i olduğu halda), əmlakı kirayəyə verən fiziki şəxsə ödədiyi icarəhaqqından 14 faiz dərəcə ilə vergi tutmalı və həmin məbləği dövlət büdcəsinə ödəməlidir. İcarəhaqqından vergiödəyən fiziki şəxs vergi orqanına vergi bəyannaməsi təqdim etməlidir. İcarəyəverənin əldə etdiyi gəlirdən ödəmə mənbəyində vergi tutulduğu üçün onun həmin gəlirindən vergi tutulmur.

Digər bir halda isə əmlakı icarəyəgötürən fiziki şəxs vergi ödəyicisi kimi vergi orqanında uçotda olmadığı halda, əmlakı icarəyəverən fiziki şəxs VÖEN əldə etməli və ona ödənilən icarəhaqqından xərclər çıxılmadan 14 faiz dərəcə ilə vergini hesablayıb dövlət büdcəsinə ödəməlidir.

Fiziki şəxs əmlakı hüquqi şəxsdən icarəyə götürdüyü halda, icarəyəgötürən fiziki şəxsin vergi orqanında qeydiyyatda olub-olmamasından asılı olmayaraq, hüquqi şəxsə ödədiyi icarəhaqlarından ödəmə mənbəyində vergi tutulmur. Hüquqi şəxs əldə etdiyi həmin icarəhaqlarından 20 faiz dərəcə ilə mənfəət vergisi ödəyir.

***– Bu gün real həyatda daha çox rastlaşdığımız vətəndaşların şəxsi evlərinin icarəyə verilməsidir. Həmin vətəndaşlar evini icarəyə verərkən hansı prosedurları həyata keçirməlidirlər?***

– Vətəndaş evini vergi orqanında qeydiyyatda olan şəxsə kirayə verdiyi halda, kirayəyə götürən tərəfindən ona ödənilən kirayə haqlarından ödəmə mənbəyində 14 faiz dərəcə ilə vergi tutulur və bu zaman evini kirayə verən şəxsin vergi orqanında uçota alınmaq, əldə etdiyi icarəhaqqından vergi ödəmək və bu barədə vergi orqanına bəyannamə təqdim etmək öhdəliyi yaranmır.

Vətəndaş evini vergi orqanında qeydiyyatda olmayan fiziki şəxsə kirayə verdiyi halda, özü yaşadığı yer üzrə vergi orqanına ərizə ilə müraciət etməli və həmin ərizəyə şəxsiyyətini təsdiq edən sənədin surətini əlavə etməlidir. Vergi orqanı vətəndaşın ərizəsi daxil olduğu gündən sonrakı 2 gün müddətində ona vergi orqanında uçota alınmasını təsdiq edən və üzərində vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN) göstərilən müvafiq şəhadətnamə verir.

Bundan sonra VÖEN-i olan vətəndaş kirayə haqqından xərclər çıxılmadan əldə etdiyi gəlirdən dövlət büdcəsinə 14 faiz dərəcə ilə vergi ödəyir və növbəti il martın 31-dək vergi orqanına gəlir vergisinin bəyannaməsini təqdim edir.

***– Bəzi vergi ödəyiciləri icarə müqavilələrində icarəhaqqının məbləğini həqiqətdə olduğundan xeyli az göstərir, bəzi hallarda isə obyektlər müqavilə olmadan icarəyə verilir. Hər hansı icarəhaqqının ödənilməsi ilə bağlı tərəflər arasında sənəd tərtib edilmədən vergini ödəməkdən yayınıbsa, həmin şəxslərə qarşı hansı cərimələr və sanksiyalar tətbiq oluna bilər?***

– Apardığımız müşahidələr onu göstərir ki, bəzi hallarda icarəyəverən və icarəçilər arasında qarşılıqlı əmlak kirayəsi müqavilələri bağlanarkən onlar müqavilələrində icarəhaqqının məbləğini həqiqətdə olduğundan xeyli az göstərirlər. Təbii ki, bu da dövlət büdcəsinə ödənilməli olan vergilərin yayındırılmasına şərait yaradır.

İcarəhaqqının müqavilədə aşağı məbləğdə göstərildiyi və ya obyekt müqavilə olmadan istifadəyə verildiyi hallarda vergi orqanları Vergi Məcəlləsinin 14-cü maddəsinə müvafiq olaraq qeyd olunan icarə müqaviləsində göstərilən qiymətlə deyil, bazar qiymətlərindən və ya məcəllənin 67-ci maddəsinə müvafiq olaraq əlaqəli məlumatlardan istifadə edilməklə vergiləri hesablamaq səlahiyyətindədirlər.

Dövlət büdcəsinə ödənilməli olan vergilərin yayındırılmasına görə vergi ödəyiciləri Vergi Məcəlləsinin 57-ci, 58-ci və 59-cu maddələri ilə müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar. Mənzilini kirayə verən və vergi ödəyicisi kimi qeydiyyata durmağa borclu olan vətəndaşa, habelə ödədiyi kirayə haqqından ödəmə mənbəyində vergini tutmağa və büdcəyə köçürməyə borclu olan şəxsə vergi ödəməkdən yayındığı halda, aşağıdakı məsuliyyət tədbirləri tətbiq oluna bilər:

– Vergi Məcəlləsinin 58.2-ci maddəsinə əsasən, müəyyən olunmuş müddətdə vergi orqanlarında uçota alınmamasına və Vergi Məcəlləsinin 57.1-ci maddəsinə əsasən, bəyannamə vermək öhdəliyi olan vergi ödəyicisi tərəfindən əldə etdiyi və ya ödədiyi icarəhaqlarına görə vergi orqanına Vergi Məcəlləsi ilə müəyyən olunmuş müddətdə hesabat təqdim edilməməsinə görə, hər bir nöqsana görə ayrı-ayrılıqda 40 manat (yəni 80 manat) məbləğində maliyyə sanksiyası tətbiq edilir;

– Vergi Məcəlləsinin 58.1-ci maddəsinə əsasən, verginin (o cümlədən ödəmə mənbəyində verginin) hesabatda göstərilən məbləği verginin hesabatda göstərilməli olan məbləğinə nisbətən azaldılmışdırsa, habelə büdcəyə çatası vergi məbləği hesabat təqdim etməməklə yayındırılmışdırsa, vergi ödəyicisinə azaldılmış və ya yayındırılmış vergi məbləğinin 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir;

– Vergi Məcəlləsinin 59.1-ci maddəsinə əsasən, vergi məbləğləri qanunvericiliklə müəyyən edilmiş müddətdə ödənilmədikdə ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən və ya ödəmə mənbəyində vergini tutmağa və büdcəyə köçürməyə borclu olan şəxsdən ödənilməmiş vergi məbləğinin 0,1 faizi məbləğində faiz tutulur.

Bütün bu məsuliyyət tədbirlərinin baş verməməsi üçün vergi ödəyiciləri və eləcə də vətəndaşlarımız vergi qanunvericiliyinin tələblərinə ciddi əməl etməklə vergiləri dövlət büdcəsinə vaxtında və tam həcmdə ödəməlidirlər.

**Muxtar MƏMMƏDOV**

***Naxçıvan Musiqi Kolleci yarandığı gündən etibarən milli musiqimizin inkişafı sahəsində uğurlu yol qət edərək incəsənətimizin bu növünə dəyərli töhfələr bəxş etmişdir. Artıq 40 ildən çoxdur ki, muxtar respublikamızda fəaliyyət göstərən bu təhsil ocağını mədəni irsimizə gərəkli olan ixtisaslı kadrların yetişməsində, bir növ, baza hesab etmək olar. Hazırda burada çoxlu istedadlı gənc təhsil alır. Onlardan birini oxucularımızla yaxından tanış etmək istəyirəm.***

*Yeni nəsil, yeni nailiyyətlər*

## Gənc pianoçunun uğurları



Əvvəlcə məlumat üçün bildirim ki, gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 30 sentyabr 2015-ci il tarixli Sərəncamına əsasən, kollecin Fortepiano ixtisası üzrə birinci kurs tələbəsi Səkinə Quliyevanın adının "Qızıl kitab"a salınmasını təhsil ocağının uğurlarından biri hesab etmək olar.

Bəs 16 yaşlı Səkinə Quliyevada musiqiyə həvəs nə vaxt yaranıb? Öyrəndim ki, o, hələ uşaq yaşlarında eşitdiyi musiqi melodiyalarını asanlıqla yadda saxlaya bilirdi. Bu, onun gələcəkdə yaxşı bir musiqiçi olmasına zəmin yaratmışdı. Bu istedadı onu 2008-ci ildə Naxçıvan şəhərindəki 2 nömrəli uşaq musiqi məktəbinin fortepiano sinfinə gətirib çıxarır.

Musiqi məktəbində Şəhla Pənahlının sinfində ilk musiqi təhsilini alan Səkinə burada oxuduğu illərdə müxtəlif uğurlara imza atır, bacarığı, çalışqanlığı və istedadı ilə digərlərindən fərqlənməyi bacarır. O, 2010-cu ildə ulu öndər Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş müsabiqədə birincidərəcəli diploma layiq görülür. Səkinə deyir ki, 10 yaşında qazandığı bu ilk uğur onu və ailəsini xeyli sevindirmişdir. Onun növbəti uğuru isə 2012-ci ildə Bakıda gənc pianoçuların ikinci respublika müsabiqəsində ikincidərəcəli diploma layiq görülməsi olur. Həmin müsabiqədə Səkinənin bacarığı respublika səviyyəsində qiymətləndirilir. Bu hadisə gənc istedadımızı ruhlandırır, daha böyük müvəffəqiyyətlərə nail olmaq üçün yorulmadan çalışmağa sövq edir.

Əzmlə və həvəslə çalışmağının nəticəsində Səkinə Quliyeva 15 iyun 2015-ci ildə Milli Qurtuluş Gününə həsr edilmiş solo konsert proqramını həyata keçirməyə müvəffəq olur. Konsertin 12 nömrədən ibarət olan çıxış proqramında Vaqif Mustafazadənin, Vasif Adıgözəlovun, Ramiz Mirişlinin və Adil Bəbirovun əsərləri ilə yanaşı, Avropa bəstəkarlarından F.Şubertin, F.Şopenin də əsərləri yer almışdı. Konsert dinləyicilər tərəfindən böyük rəğbətlə qarşılanır.

Səkinənin adının "Qızıl kitab"a düşməsi Quliyevlər ailəsinə sözlə ifadə edilə bilməyəcək qədər böyük bir sevinc hissi yaşatmışdır. Onların ilk övladının uğurları ailənin hər bir üzvünün sevinc qarışıq fəxr hissi yaşamağına səbəb olmuşdur.

Elə həmin ildə Naxçıvan Musiqi Kollecinin Fortepiano ixtisasına qəbul olunan Səkinə burada Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Nərminə Qədimovanın sinfində təhsil almağa başlayır. Nərminə Qədimovanın Səkinə haqqında dediklərindən müəlliminin öz tələbəsinin çalışqanlığından razı qaldığını hiss etmək çətin deyildi. Nərminə xanımın ona böyük inam bəslədiyini bildirən gənc musiqiçi isə Nərminə müəllimin etimadını doğrultmaq yolunda əlindən gələni edəcəyini və yorulmadan çalışacağını vurğuladı.

Haliyədə L.Bethoven və İ.S.Bax kimi dünya musiqi mədəniyyətinə dəyərli nümunələr bəxş etmiş bəstəkarların repertuarına müraciət edən Səkinənin növbəti solo konsert hazırlamaq istəyini gələcək planlarında yer alan işlərdən biri hesab etmək olar.

Uğur qazanmaq üçün, sadəcə, istedad kifayət etmir. Çalışmaq, səy göstərmək müvəffəqiyyətə gedən yolda ən mühüm addımdır. Çalışqanlığı və istedadının vəhdəti sayəsində qazandığı nailiyyətləri əsas götürərək deyə bilərəm ki, Səkinə bundan da yaxşı ifaçılıq potensialına malikdir və əgər bu yaşda belə uğurlara sahiblənə bilibsə, deməli, gələcəkdə daha böyük uğurlara da imza ata bilər. Biz də bu yolda gənc istedadımıza yeni-yeni nailiyyətlər arzu edirik.

**Fatma BABAYEVA**

## Üzgüçülük üzrə şəhər birinciliyi keçirilib

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin Üzgüçülük Mərkəzində yeniyetmə və gənclər (2000-2002, 2003-2004 və 2005-ci illər təvəllüdlü) arasında üzgüçülük üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.***

Kompleksin direktoru Ramin Talıbov tədbiri açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov çıxış edərək bildirib ki, bu yarışı keçirməkdə məqsəd məktəblilərin yay tətilinin daha da səmərəli təşkilinə nail olmaqdır.

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin birgə təşkilatçılığı ilə keçirilən yarışda 3 yaş qrupunda 50-yə yaxın idmançı iştirak edib. Üzgüçülüyün sərbəst üsulu üzrə 25 metr məsafədə keçirilən yarışın yekununa əsasən, 2000-2002-ci illər təvəllüdlü idmançılar arasında Həsən Abbasov, 2003-2004-cü illər təvəllüdlü idmançılar arasında Amil Kətanov və 2005-ci il təvəllüdlü idmançılar arasında Ələsgər Hüseynov bütün rəqiblərini qabaqlayaraq birinci yerə layiq görülüblər.

Sonda hər yaş qrupunda yer tutan və fərqlənən idmançılara təşkilatçıların diplom və fəxri fərmanları təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Nəcəfova Şəhanə Məzahir qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 528